# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2014-cü ildə elan edilərək keçirilmiş 3-cü "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-3-Shusha-2014-7(22)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan- Ermənistan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində travmaya məruz qalmış insanların sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cabbarov Rəşid Vəkil oğlu**

Qrantın məbləği: **55 000 manat**

Layihənin nömrəsi: **EİF/MQM-3-Şuşa-2014-7(22)-05/04/5-M-03**

Müqavilənin imzalanma tarixi: **11 dekabr 2015-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il-01 yanvar 2017-ci il**

**Diqqət**! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Layihədə işlər iki istiqamətdə aparılmışdır.Birinci istiqamətdə tədqiqatın həyata keçirilməsi üçün zəruir metodikalar hazırlanmış, onların modifikasiyası aparılmış, qaçqın və məcburi köçkünlərin sosial-psxioloji vəziyyətinə və onların məruz qaldığı travmanın tədqiqinə həsr olunmuş işlər təhlil olunmuş, bu istiqamətdə tədqiqatların metdoloji əsasları öyrənilmiş, problemin öyrənilməsinin müasir vəziyyəti araşdırılmış, sistemləşdirilmiş və monoqrafik tədqiqat işlənib hazırlanmışdır.Tədqiqatda əsasən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin etnopsixoloji kökləri təhlil olunmuş, münaqişə zamanı və ondan sonra təzahür edən travmatik halların psxioloji təzahürləri göstərilmiş, qaçqın və məcburi köçkünlərin sosial-psixoloji adaptasiyası, şəxsiyyət və identiklik böhranı, qayıdan təəssüratlar sindromu, travmatik hadisələr yaşamış insanlarda davranış strategiyalarının istiqamətləri öyrənilmişdir.<br>İkinci istiqamətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdundan qovulmuş məcburi köçkünlərin məckunlaşdığı bir sıra ərazilərdə (Bakı şəhəri və onun ətraf rayonları, Fizuli rayonu, Ağdam rayonu və Gəncə şəhəri) psixoloji tədqiqatlar aparılmışdır.<br>Tədqiqatın məqsədi psixoloji metodların köməyi ilə travmaya məruz qalmış müxtəlif yaş qruplarından, |

müxtəlif regionlardan olan və fərqli ərazilərdə məskunlaşan qaçqın və məcburi köçkünlərin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsindən ibarətdir.Tədqiqatların məğzini testləşdirmə təşkil edirdi və onun əsas məqsədi diaqnostik xarakterli əlamətlərin aşkarlanması olmuşdur.

Tədqiqatda belə bir fərziyyə əsas götürülmüşdür ki, qaçqın və məcburi köçkünlərin sosial-psixoloji vəziyyətinin adekvatlığı bir sıra amillərlə yanaşı travmanın dərəcəsindən, adaptasiya imkanlarının səviyyəsindən, məskunlaşdığı şəraitin əlverişliyindən, psixosomatik vəziyyətundən, o cümlədən gələcəyə pozitiv münasibətində çox asılıdır. Tədqiqatda 1000 nəfər iştrak etmişdir. Lakin iştrakçıların yalnız 770 nəfərinin test məlumatları emal edilmiş və riyazi-statistik işlənmişdir.Tədqiqatın keçirilməsi zamanı ümumi və sosial-psixoloji yanaşma əsas götürülmüşdür.Tədqiqatda psixoloji vəziyyəti, sosial adaptasiyanı, depressiv vəziyyəti, yeni şəraitə uyğunlaşmanı, həyatdan məmnunluğu, stressə davamlılılğı, travma yaradan hadisəni və adaptasiya imkanlarını ölçməyə imkan verən metodikalardan istifadə olunmuşdur:

1) “Psixi vəziyyətin qiymətləndirilməsi metodikası” (Q.Ayzenk).
2) “Depressiya şkalası” (A.Bek).
3) “Sosial-psixoloji adaptasiya” metodikası (K.Rocers və R.Daymond).
4) “Stressədavamlılıq” metodikası (T.Xolms və R.Rayx).
5) “Şəxsiyyətin yeni sosial-mədəni şəraitə adaptasiyası” metodikası(L.V.Yanıkovski).
6) ” Həyatdan məmnunluq testi”( N.N.Melnikova).
7) Travmayaradan hadisələrin qiymətləndirilməsi (İSE-R).
8) Anket sorğusu.

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli)

Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlər yekun hesabat üçün 95 % yerinə yetirilmişdir.

**3** Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

Apardığımız tədqiqatda mövcud tədqiqatlardan fərqli olaraq ümumi və sosial-psixoloji yanaşma əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin etnik cəhətləri təhlil olunmuş, münaqişənin yaranmasına tarixi retrospektiv kontekstdən yanaşılmış, münaqişə zamanı alınmış travmaların xarakteri aşkarlanmış və travmadan sonrakı dövrdə davranış strategiyalarının inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Aydın oldu ki, travma amili məcburi köçkünlərin psixoloji vəziyyətinə neqativ təsir göstərir və bu təsirlər arasında əhəmiyyətli əlaqə vardır. Bununla yanaşı bu tədqiqat göstərdi ki, travmanın uzunmüddətliliyi qaçqın və məcburi köçkünlərdə psxioloji diskomfort yaradır, sosial-psixoloji adaptasiyanı çətinləşdirir, müxtəlif xəstəliklərə gətirib çıxaran emosional gərginliklər müşahidə olunur. Müəyyənləşdirildi ki, torpaqların uzun müddət düşmən işğalında qalması məcburi köçkünlərin psxioemosinal vəziyyətinə neqativ təsir göstərməklə yanaşı onların şəxsiyyətində identiklik böhranı yaradır, zamanın qavranılmasında bütövlük pozulur, gələcək qeyri real planlaşdırılır. Bununla yanaşı bu işdə:

- Qaçqın və məcburi köçkünlərin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi üçün zəruri olan kompleks yanaşma əsaslandırılmış, sosial-psxioloji adaptasiyanın adekvatlığını təmin etmək üçün zəruri olan davranış strategiyaları göstərilmiş;
- Qaçqın və məcburi köçkünlərin sosial-psxioloji adaptasiyasında mühüm əhəmiyyət kəsb edən psixi vəziyyətin əsas komponentlərinin, o cümlədən həyəcanlılıq səviyyəsinin,rigidliyin və aqressiv davranışın göstəriciləri aşkarlanmış;
- Yaş xüsusiyyətlərindən asılı olaraq sosial-psxioloji vəziyyətin dinamikasının təzahürləri göstərilmiş, bu dinamikaya təsir göstərən amillər qrupu müəyyən edilmişdir;
- Qaçqın və məcburi köçkünlərin yenidənuyğunlaşma prosesində ciddi manеələr kimi çıxış edən amillər sistemləşdirilmiş, onaların aradan qaldırılması üçün vacib olan korreksiya işlərinin həyata keçilrilməsi tövsiyə olunmuşdur.

Qaçqın və məcburi köçkünlərdə həyacanlılıq səviyyəsinin ölçülməsi göstərdi ki, birbaşa döyüş bölgələrindən və yaşadığı ərazinin spontan tərk edən məcburi köçkünlərdə həyacanlılıq səviyyəsi, digərlərinə nisbətən çox yüksəkdir. Deməк olar ki, onların psixoemosional vəziyyətində nevroz vəziyyətinə yaxınlıq hiss

olunur və neyrotizm yüksəkdir. Bununla yanaşı orta səviyyədən yüksək həyacanlılıq heç bir müharibə şəraitində olmayan məcburi köçkünlərdə də müşahidə olunmuşdur. Lakin onların adaptasiyası və yenidən-uyğunlaşması, özünütəsdiq imkanları birincilərə nisbətən daha yüksəkdir.

Məcburi köçkünlərdə sosial münasibətlərin və ailədaxili iqlimin harmoniyasını pozan aqressivliyin səviyyəsinin normadan artıq olduğu aşkarlandı. Müəyyən edildi ki, aqressivliyin yüksək səviyyəsi ilə həyacanlılıq arasında bir asılılıq var və bu asılılıq düz mütənasibdir. Aqressivliyin yüksək səviyyəsi daha çox döyüş görmüş və həmin şəraitə yaxın yaşamış qaçqınlarda və məcburi köçkünlərdə müşahidə olunmuşdur. Maraqlıdır ki, adaptasiya qabiliyyəti yüksək olan və yeni şəraitə uğurla adaptasiya olunan və ictimailəşmə prosesində fəallıq göstərən məcburi köçkünlərdə də aqressivliyin yüksək səviyyəsi özünü göstərdi. Bu fakt torpaqların itirilməsi və azad olunmasının gecikməsi ilə izah oluna bilər. Cinsi meyarlara görə kişilərdə qadınlara nisbətə aqressivlik daha yüksək olmuşdur. Bununla yanaşı aqressivliyin yüksək olduğu şəxslərdə depressiv vəziyyətlərin orta göstəriciləri özünü göstərir.Həyatın mənasının itirilməsi və ya gələcəyə ümidsizlik, qayıdan təəssüratlar  belə insanlarda daha yüksək intensivliyə malikdir və tez-tez təkrarlanır.

Tədqiqat göstərdi ki, adaptasiyası uğurla həyata keçmiş gənclərdə motiv-məna vektoru daha yüksəkdir və pozitiv gələcəyə yönəlişlik müşahidə olunur, özünü keçmişlə və gələcəklə adekvat identifikasiya edir. Gənclərdən fərqli olaraq yaşlılarda isə bu fakt özünü aşağı səviyyədə  göstərir. Bundan əlavə müəyyən fəaliyyətlə məşğul olan məcburi köçkünlərdə depressiv siptomlar aşağı səviyyədədir, əksinə gündəlik yaşam tərzini təsadüflər üzərində quran insanlarda isə hər iki (həyəcanlılıq, aqressivlik) amil üzrə göstəricilər normadan yüksəkdir. Faktlar göstərdi ki, birbaşa döyüş bölgəsində yaşamış məcburi köçkünlərlə, döyüş bölgəsindən müəyyən məsafədə yaşamış köçkünlər arasında ciddi fərqlər özünü göstərməkdədir. Birincilər psixoloji travmalara daha həssasdırlar və hər hansı oxşar hadisələr (səslər, konflikt halları, şayələr və s.) onlarda travmanın "təzələnməsinə" zəmin yarada bilir.

Apardığımız tədqiqat göstərdi ki, məcburi köçkünlərin doğma-yurd yuvasından didərgin düşməsindən 23 ildən artıq vaxt keçməsinə baxmayaraq travmatik siptomlar hələ də özünü göstərir və məcburi köçkünlərin fəaliyyətinə, yaşam tərzinə, psixoloji sağlamlığına ciddi təsir göstərir. Bu vəziyyət özünün formasını dəyişmiş psixosomatik ağrılarda, mütəmadi nevrotik tutmalarda, konfliktlərdə, sosial münasibətlərdən uzaqlaşmalarda və depressiv hallarda özünü təzahür etdirir.

Adaptasiya imkanlarının tədqiqinə yönəlmiş metodikaların təhlili göstərdi ki, məcburi köçkünlərin adaptasiyasını çətinləşdirən amillər sırasında ilk sırada torpaqların itirilməsi amili dayanır.  Daha sonra isə şəxsi motivlər, uşaqların gələcəyi, perspektivlər və mənzil problemi bu adaptasiyanı çətinləşdirən səbəblər sırasındadır. İş problemi, əmək haqqının gecikdirilməsi amili daha az cavab verilənlər sırasında olsa da, bu amillər sırasında qeyd edilməkdədir.

Empirik materialların korrelyasiya təhlili göstərdi ki, qaçqınların və məcburi köçkünlərin adaptasiya səviyyəsi köçməzdən əvvəlki maddi təminat səviyyəsinə görə ailə kateqoriyası ilə, öz perspektivlərinin qiymətləndirilməsi ilə, adaptasiya probleminin həllinə emosional münasibətlə və yaşayış planları ilə daha sıx şəkildə  bağlıdır ($p= 0,05$ və $p= 0,01$ səviyyəsində ikitərəfli əhəmiyyətlilik özünü göstərir).Məcburi köçkünlərin adaptasiya dərəcəsinin korrelyasiya təhlili prosesində aşağıdakı statistik cəhətdən əhəmiyyətli olan asılılıqlar aşkar edilmişdir:

- Adaptasiya səviyyəsi və şəxsi perspektivlərin qiymətləndirilməsi arasında düz mütənasiblik müşahidə olunur.Məcburi köçkünlər şəxsi perspektivlərini nə qədər aşağı qiymətləndirirsə, yeni şəraitə adaptasiya dərəcəsi də bir o qədər çətin olur.
- Adaptasiya səviyyəsi və yeni şəraitə adaptasiya probleminin həllinə baxış arasında əhəmiyyətli asılılıq aşkar edilmişdir: adaptasiya probleminin həllinə baxış nə qədər optimist olarsa, adaptasiya prosesi bir o qədər uğurludur. Burada orta səviyyəli asılılıq müşahidə olunur.

Tədqiqat zamanı respondentlərin yeni məkana adaptasiyasında əhəmiyyətli fərqlər aşkar edilmişdir.

Tədqiq olunanların 12%-də adaptasiyanın orta dərəcəsi, 24%-də orta dərəcədən aşağı, 64%-də isə aşağı səviyyə müşahidə edilmişdir. Beləliklə, aydın olur ki, məcburi köçkünlərin adaptasiyası hələ də tam başa çatmamışdır və adaptasiyanın ən aşağı səviyyəsi müşahidə edilməkdədir. Adaptasiya perspektivlərini qiymətləndirən zaman respondentlərin əksəriyyəti (12%) xüsusi ümid və illuziyalara qapılır, 21%-də

həyəcan və inamsızlıq, 76%-də isə qorxu və ümidsizlik müşahidə olunur.Tədqiqatdan göründüyü kimi respondentlərinin hər yeddincisi yeni yerdə adaptasiya probleminin həllinə ümid və optimizmlə baxır. Beləliklə, tədqiqatın nəticələrinin təhlili göstərir ki, məcburi köçkünlərin sosial-demoqrafik, sosial-iqtisadi, sosial-peşə xarakteristikalara və sosial adaptasiya dərəcəsinə görə fərqlənən üç qrupunu aşkar etmək olar:

1-ci qrupa yaşlı nəslin nümayəndələrini aid etmək mümkündür. Bu qrupa müharibəni gözləri ilə görmüş və yurd-yuvasını, bütün sərvətini köçkünlükdə itirmiş həyatın axarı ilə davam etmək çətin olan insanlar daxildir. Onlar üçün illər ötsə də, problemlər qalır, daim doğma yurda qayıtmaq haqqında düşünürlər. Bu qrupa daxil olan insanlar üçün evə qayıtmaq, qoyub gəldikləri keçmişə dönmək anlamını xatırladır. Bu qrupa aid olan məcburi köçkünlərin adaptasiya səviyyəsi aşağıdır, gələcəklə bağlı qorxu və ümidsizlik özünü göstərir.

2-ci qrupa orta nəsilə aid olan məcburi köçkün və qaçqınları aid etmək mümkündür. Bu qrupa daxil olan insanlarda adaptasiya səviyyəsi ortadan aşağıdır. Onlar problemin həllinə daha optimist yanaşırlar. Onlar məcburi köçkünlərin sosial cəhətdən daha fəal hissəsini təşkil edir.

3-cü qrupa gənc nəsil məcburi köçkünləri aid etmək mümkündür. Bu qrupa aid qaçqın və məcburi köçkün uşaqları işğal altındakı torpaqları görməsələr də dərk edirlər ki, əslində vətənləri haradır və həmin yerə qayıtmaq lazımdır. Bu yaş qrupuna aid olan insanlarda fiziki adaptasiya dərəcəsi çox yüksək olsa da, psixoloji adaptasiya səviyyəsi orta səviyyədədir.

Aparılmış tədqiqat əsasında qaçqınların və məcburi köçkünlərin adaptasiya davranışının tipologiyası müəyyən edilmişdir: "yaşlı" ( passiv, reqressiv adaptasiya davranışı), "orta nəsil" (fəal, reqressiv adaptasiya davranışı) və "gənc nəsil" (fəal, orta adaptasiya davranışı).

Tədqiqat göstərdi ki, məcburi köçkünlər eyni zamanda özləri üçün yeni, olduqları mühitə xarakterik olan dəyərlər, davranış normaları yaratmalı olurlar. Bu zaman onlar həm də əvvəlkilərdən imtina etmək üçün özlərində qüvvə tapmalıdırlar və bunu etmək bəzən daha çətin olur. Bu səbəbdən məcburi köçkünlərin adaptasiya prosesinə nəinki onların şəxsiyyətinin xüsusiyyətləri, həm də adaptasiyasının xarici şərtlərinin keyfiyyətcə yenidən qurulmasını tələb edən geniş zaman müddəti sərf olunur. Yuxarıda deyilənləri nəzərə alaraq məcburi köçkünlərin, xüsusilə də şəhərətrafı rayonlarda yaşayanların uyğunlaşma–adaptasiya çətinliklərini məntiqi cəhətdən anlamaq olur.

Məcburi köçkünlərin gəldikləri bölgələrdə ictimai–mədəni şərait böyük şəhərdəki mədəniyyət və mentalitetdən kifayət qədər fərqlənir. Belə ki, böyük şəhərdə əksərən daha mürəkkəb, yüksək rəqabətli özünəməxsus "yaşayış" qaydaları mövcuddur, adaptasiya olmaq məqsədi ilə yeni davranış formalarının hazırlanması və yeni ictimai əlaqələrin qurulması zəruridir.Nəzərə almaq lazımdır ki, məcburi köçkünlərin sosial-psixoloji adaptasiyası əsasən obyektiv olmayan, daha çox subyektiv amillərlə şərtlənir. Bu cür şərait readaptasiya proseslərinin yalnız məcburi köçkünlərin fərdi psixoloji xüsusiyyətlərindən asılı olmadığı və eyni zamanda readaptasiya olunacaq ictimai mühitlə də şərtlənməsi haqqında nəzəri müddəanı təsdiqləyir.

Aparılmış tədqiqatın nəticəsində aydın olur ki, məcburi köçkünlərin sosial adaptasiya prosesinə və stressədavamlılığına cinsi xüsusiyyətləri, təhsili bir o qədər də təsir etmir. Amma tendensiya xarakterli asılılıq vardır. Ailədəki psixoloji iqlimin konfliktliyi bu amillərin təsir dərəcəsinin yüksəlməsinə səbəb olur. Aşkar edildi ki,məcburi köçkünlərdə emosional fon aşağı səviyyədədir, onlar emosional cəhətdən gərgindirlər və az əhəmiyyətli məsələlərlə qayğılanmağa, həssaslılığa, narahatlığa meyllidirlər.

Bütövlükdə anket məlumatları üzrə məcburi köçkünlərin uğurlu adaptasiyasından danışmaq olmaz. Lakin anket sorğularında iştrak edənlərin bir hissəsinin tələbə, digər hissəinin işlə təmin olunmuş hesab etsək deyə bilərik ki, məcburi köçkünlərin müəyyən bir qismində bu proses uğurludur, amma travmadan azad deyil. Ola bilər ki, travma və keçmiş təəssüratlardan yaranan psixoloji narahatlıqları və mənəvi boşluqları iş fəaliyyəti bir növ kompensasiya edir. Bununla yanaşı yeni evlərə köçürülmə, məişət problemlərinin bir qisnmini təminetmə öz növbəsində sosial-psixoloj adaptasiya proseslərini asanlaşdırır. Gənc məcburi köçkünlərin əsas məqsədlərini təyin etməli olsaq, anket sorğusu məlumatlarına görə mülahizə yürütmək olar ki, əsas motivlər peşə yüksəlişi, maddi rifahın əldə olunması və ali təhsil almaqdır və bütün bunlar şübhəsiz ki, Bakı şəhərinin sosial– iqtisadi cazibəsini artırır. Məhz buna görə də ətraf rayonlarda stressədavamlılıq şəhər həyatından kəskin fərqlənir və adaptasiya prosesində də müəyyən problemlər üzə çıxarır. Əlbəttə, məcburi köçkünlərin ailələrində uşaqların sayı kimi amillər, xüsusilə də ailədə yeganə övladın və

ya yetkinlik yaşında olan övladların mövcudluğu onların stressədavamlılığını azaldan şərtləri artırır. Bu da əsasən adaptasiya prosesləri ilə əlaqədar olmayıb ailə münasibətlərinin inkişafının psixoloji xüsusiyyətlərindən və həyat yoldaşı, valideyn rollarının dəyişməsi dinamikasından asılıdır. Bu da stressədavamlılığın ümumi dinamikasına təsir edir, sosial-psixoloji adaptasiyanı zəiflədir.

Ümumiyyətlə, apardığımız tədqiqat aşağıdakı cəhətləri müəyyən etməyə imkan verir:

- Müxtəlif yaş dövrlərində olan qaçqın və məcburi köçkünlərin psixoloji vəziyyətində müxtəlif elementlər, o cümlədn qaçış reaksiyaları, fizioloji oyanınqlıq və interaktivlik üstünlük təşkil edir. Məsələn, 56-65 yaş həddində psixi vəziyyətin dinamikasında süstlük daha çox müşahidə olunur ki, bu da həmin yaş dövründə olan qaçqın və məcburi köçkünlərin konkret depressiv vəziyyətindən xəbər verir. Ən yaxşı hal 10-18 yaşındakı gənclərdə müşahidə olunur ki, onlar da hər hansı müahribə və ya ekstremal vəziyyət yaşamamışlar.
- Tədqiqat göstərdi ki, məcburi köçkünlərin 36 və 45 yaş civarında stress yükünün səviyyəsinin azalmasına və uyğun olaraq daha yaşlı və daha gənc fərdlərdə isə artmasının şahidi oluruq. Bu da öz növbəsində stress amilinə daha həssas məcburi köçkün yaş kontingentinin uzun müddətli gərginliklərlə və müasir şəraitə sosial-psixoloji adaptasiya problemləri ilə şərtlənir.
- Normal və konktli məcburi köçkünlərinin ailələrində sosial adaptasiya və stressədavamlılığın ailədə psixoloji vəziyyətin parametrindən asılılığının orta statistik təhlili zamanı əhəmiyyətli fərqlər aşkarlandı. Konfliktli ailələrdə stressədavamlılıq aşağı səviyyədə özünü göstərdi ki, bu da uyğun olaraq sosial-psixoloji adaptasiyada problemlərin olduğunu diqqət mərkəzinə gətirir. Əlavə sorğular göstərdi ki, konfliktli ailələrdə stressədavamlığın aşağı olması ailədəki psixoloji iqlimdən qaynaqlanır və əlavə stress yüklənmələri onu daha da dominantlaşdırır.
- Tədqiqat göstərdi ki, ailədə uşaqların sayından asılı olaraq sosial adaptasiya və stressədavamlılıq səviyyələrində əhəmiyyətli bir fərq yoxdur. Lakin stressədavamlılığın orta statistik göstəriciləri bir övladı olan məcburi köçkünlərdə, eləcə də övladları yetkin yaşda olanlarda stress amillərinin gücləndiyinə işarə edir. Ola bilər, bu onunla əlaqədardır ki, göstərilən köçkünlərin kateqoriyasında yeni şəraitə uyğunlaşmaqdan əlavə yeni rola– valideyn roluna uyğunlaşmaq zərurəti yaranır. Bu da yeni adaptasiya resursları tələb edir. Eyni zamanda yetkin övlad sahibi olan məcburi köçkünlər nəinki inkişafın yaş krizisini yaşayırlar, həm də sosial-iqtisadi çətinliklərin onların övladlarına təsir edəcəyi üçün narahat olurlar.
- Tədqiqat göstərdi ki, uzun müddət normal olmayan şəraitdə stressədavamlılığın orta statistik göstəriciləri məskunlaşdıqları müddətin artması ilə adaptasiya mexanizmlərinin yaxşılaşması sayəsində məcburi köçkünlərin stress faktorlarına qarşı müqaviməti də artır. Bununla belə məcburi köçkünlərin məskunlaşdıqları rayondan asılı olaraq sosial adaptasiya və stressədavamlılıq xüsusiyyətlərində əhəmiyyətli dərəcədə fərqlər aşkar edilmişdir.

Müəyyən edildi ki, məcburi köçkünlərin məskunlaşdıqları ərazilər üzrə qruplararasındakı stressədavamlılıq göstəriciləri p=0.05 səviyyəsində əhəmiyyətlidir. Deməli qruplararası stressədavamlılğın göstəriciləri arasında əhəmiyyətliliyin müəyyən edilməsi bir daha təsdiq edir ki, məcburi köçkünlərdə stressədavamlılıq səviyyəsi ümumilikdə zəifdir və bu da onların sosial-psixoloji adaptasiyasına hərətəfli təsir göstərir. Adaptasiya dərəcəsi və şəxsi perspektivlərin qiymətləndirilməsi arasında da asılılıq aşkar edilmişdir: məcburi köçkün şəxsi perspektivlərini nə qədər aşağı qiymətləndirirsə, yeni yerdə adaptasiya dərəcəsi də bir o qədər çətin olur.

Travmanın göstəricilərinin və özünügerçəkləşdirmənin şkalalarının təhlilindən belə qənaətə gələ bilərik ki, sinergiya skalasinın əhəmiyyətlilik dərəcəsi P=0,009, insan təbiətinin təsəvvürləri şkalasının əhəmiyyətlilik dərəcəsi p=0,107 olmuşdur. I qrup (ciddi tarvmaya məruz qalanlar) tələbələrin qiymətləri göstərdi ki, sinergiya skalasının və insan təbiətinin təsəvvürləri ilə müqaisədə II qrupa(ciddi tarvmaya məruz qalmayanlar) nisbətən göstəricilər yüksəkdiur.Ancanq demək olmaz ki, hər ikisi ilkin yerlərdən biriu tutur. Göründüyü kimi tarvmaya ciddi məruz qalanlar və az travma keçirənlər özünügerçəkləşdirmə səviyyələrinə görə bir-birindən fərqlənirlər. Xüsusilə də özünügerçəkləşdirmənin şkalaları üzrə bu fərqlər daha qabarıq özünü göstərir.

Müxtəlif rayonlarında məskunlaşan məcburi köçkünlərlə apardığımız tədqiqatın nəticəsinin təhlili göstərdi ki, bu ərazidə yaşayan qaçqın və məcburi köçkünlərdə stressədavamlıq dərəcəsi müxtəlifdir. Bəzi

| | |
|---|---|
| | yerlərdə kifayət qədər stressədavamlılıq, bəzilərində isə yerli şəraitdə kifayət qədər stressədavamlılığın olmaması müşahidə olunur. Bu amil məcburi köçkünlərin böyüyüb başa çatdığı, tərbiyə aldığı yerli mədəni– sosial şəraitin xüsusiyyətlərindən asılıdır.<br>Əlbəttə ki, sosial – psixoloji cəhətdən fərqli bir regiona köçmək əlavə adaptasiya qaynaqları tələb edir və bu da şübhəsiz ki, stressədavamlılıq hədlərinin aşağı düşməsində özünü biruzə verir. Bununla yanaşı tədqiqat göstərdi ki, gənclərdə və orta yaşlılarda norma hüdudların qiyməti dinamik olaraq enir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, məcburi köçkünlərin readaptasiya zərurəti qarşısında qalması faktı sosial-psixoloji adaptasiyanın əhəmiyyət baxımından heç də az vacib olmayan şərtidir. Onlar ətraf mühitlə əvvəlki, adət etdikləri qarşılıqlı fəaliyyət formalarından qopmalı və yenilərini formalaşdırmalı olurlar.<br>Aparılmış tədqiqatın nəticələri bir neçə aspektdən tətbiq oluna və nəzəri tədqiqatlarda istifadə oluna bilər:<br>- Əldə olunmuş nəticələr travma ilə bağlı ümumi psixoloji və sosial-psixoloji biliklərin zənginləşdirilməsinə, o cümlədən bu sahəyə həsr olunmuş tədqiqatların elmi istiqamətləri kimi çıxış edə bilər.<br>- Əldə olunmuş biliklər ümumi və klinik psxiologiya fənninin tədrisində, o cümlədən xüsusi kursların, seçmə fənlərin tədrisində bir vəsait kimi istifadə oluna bilər.<br>- Əldə olunmuş nəticələr qaçqın və məcburi köçkünkələrin travmatik vəziyyətin aradan qaldırılması ilə bağlı korreksiya işlərində, sosial-psixoloji treninqlərin keçirilməsində, eləcə də fərdi qaydada travma yaşamış insanlarla konsultasiyalarda faydalanmaq olar.<br>- Tədqiqatın gedişində əldə olunmuş nəticələr qaçqın və məcburi köçkünlərin psixoloji vəziyyətinin və problemlərinin tədqiqində metodoloji baza, elmi istiqamət kimi çıxış edə bilər.<br>Müxtəlif regionlarda məskunlaşan və müxtəlif yaş qrupuna aid olan qaçqınların və məcburi köçkünlərin sosial adaptasiyasının bizim aşkar etdiyimiz xüsusiyyətləri və tendensiyaları onların adaptasiya strategiyalarının səmərəliliyini yüksəltməyə və qaçqınların və məcburi köçkünlərin sosial adaptasiya prosesinin optimallaşdırılması üzrə dövlət siyasətinin prioritet istiqamətlərini müəyyən etməyə kömək edəcəkdir. Bu faktlar nəzərə alınmalı və məcburi köçkünlərlə zəruri korreksiya və maarifləndirici işlər aparılmalıdır. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | 1. Ermənistan–Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi nəticəsində travmaya məruz qalmış insanların sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi. Monoqrafik tədqiqat. Bakı: 2017, 168 s.( çapa hazırlanır).<br>2. The characteristics of social and psychological adaptation and stress resistance of IDPs living in Baku city and its surrounding districts // International Journal of Science and Research (IJSR),ISSN (Online): 2319-7064, Volume 5 Issue 8, August 2016, p.1715-1721, İmpact factor: 0,23* (M.H.Mustafayev, D.R.İbrahimova və K.T.Qocayeva ilə müştərək).<br>3. Məcburi köçkünlərin sosial adaptasıyasına təsir göstərən amillərin psixoloji təhlili// Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, Bakı, 2016, №2, s.150-154(M.H.Mustafayev, D.R.İbrahimova və K.T.Qocayeva ilə müştərək).<br>4. Məcburi köçkün şagirdlərin təlimdə stressədavamlılıq xüsusiyyətlərinin qiymətləndirilməsi /“Şagird nailiyyətlərinin qiymətləndirilməsi”.Beynəlxalq elmi konfransın materialları. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi TPİ, 25 iyun 2016, s.201-203 (M.H.Mustafayev,D.R.İbrahimova və K.T.Qocayeva ilə müştərək).<br>5. Qaçqın və məcburi köçkünlərdə psixoloji vəziyyətin təzahür xüsusiyyətləri// Qərb Universitetinin Elmi Xəbərləri, Bakı, 2015, №4, s.135-140(M.H.Mustafayev, D.R.İbrahimova və K.T.Qocayeva ilə müştərək). |

| | |
|---|---|
| | 6. Məcburi köçkünlərdə identiklik böhranın təzahür xüsusiyyətləri / Psixologiya jurnalı, 2016, № 4, s.120-130<br>7. Traumatic factors affecting the self-realization of students // Vol. 8, Issue 6; June, 2017 Issue of International Journal of Pharmaceutical sciences and Research (Thomson Reuters) DOİ: 10.13040/IJPSR.0975-8232.8(6).2682-90 |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Ciddi psixoloji travmaya məruz qalmış məcburi köçkünlərin uğurlu sosial-psixoloji adaptasiyası üçün onların adət olunmuş davranış formalarından yeni davranış strategiyalarına keçmələrinə, xüsusilə də yeni sosial əlaqələrin qurulmasına ciddi ehtiyac var. Bunun üçün mənfi emosiyaların azaldılmasına və "emosional boşalmaya" zəmin yaradan maarifləndirici və korreksiyaedici treninqlərin aparılması vacibdir. |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Yoxdur. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Yoxdur. |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Yoxdur. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | Yoxdur. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Yoxdur. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Yoxdur. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Yoxdur. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Yoxdur. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | Yoxdur. |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Yoxdur. |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *yoxdur* |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**

Quliyeva Mülayim Sahib qızı

**İCRAÇI:**

**Layihə rəhbəri**

Cabbarov Rəşid Vəkil oğlu

__________________

*(imza)*

“ __” ________ 2017-cı il

_________________

*(imza)*

“ __” ________ 2017-cı il